Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Bəhruz Kəngərli - 130
# Əbədi olmağa kifayət edən bir ömür

**Bəhruz Kəngərlinin 130 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktor:** **RuhiyyəMəmmədli**

**“Əbədi olmağa kifayət edən bir ömür”-** Bəhruz Kəngərlinin 130 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait metodik vəsait / tərt.ed.N.Məcidova; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.-35s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Tərtibçi

Azərbaycanın professional rəssamlıq sənətinin banisi, istedadlı fırça ustası, əsl ziyalı Bəhruz Şirəlibəy oğlu Kəngərli çox qısa, lakin mənalı bir ömür yolu yaşamış, həyatını sənətə həsr etmişdir. O, yaratdığı əsərləri ilə Azərbaycan təsviri sənətində tamamilə yeni məktəb yaratmışdır. Qısa ömür sürməsinə baxmayaraq, sənətdə onun özünə məxsus dəst xətti, müstəsna yeri olmuşdur. Onun ömür payı şair Mikayıl Müşfiqin, bəstəkar Asəf Zeynallının, Ərtoğrul Cavidin ömür yolu ilə müqayisə edilə biləcək dərəcədə dəyərli olmuşdur. Hər zaman, müstəqillik illərində də Bəhruz Kəngərli irsinə maraq daha da artmış, yaradıcılığına daha yüksək qiymət verilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda onun ev muzeyi açılmış, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılmış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilmişdir.

Bəhruz Kəngərlinin 130 illik yubileyi münasibətilə yaradıcılığını təbliğ etmək üçün F.Köçərli adına Respublika uşaq kitabxanasında bir sıra tədbirlər həyata keçirilməsi, yaradıcılığının gənc nəslə tanıdılması nəzərdə tutulub. Hazırladığımız vəsaitdə yubilyarla bağlı tədbirlərin keçirilməsi üçün kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları, məktəb-litsey kitabxanalarına köməklik edəcək məlumatlar verilmişdir. İki hissədən ibarət olan vəsaitin I hissəsində rəssamın həyat və yaradıcılığından bəhs edilir. II hissədə isə yubiley münasibəti ilə keçiriləcək tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

Qısa lakin mənalı bir ömüryolu keçmiş parlaq istedada malik olan Bəhruz Kəngərli 1892-ci il yanvarın 10-da Naxçıvanda ziyalı ailəsində anadan olmuşdur. Yaradıcılığının ilk dövründə müəllimi – mollanəsrəddinçi rəssam O.Şmerlinqin və tələbə yoldaşı L.D. Qudiaşvilinin portretlərini çəkmiş, karikatura və satirik rəsmlər, mənzərə və məişət səhnələrini əks etdirən "Qoca kişi ", "Toy", "Elçilik" və s. kimi rəsm, akvarel və boyakarlıq əsərləri yaratmışdır. Cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş Bəhruz Kəngərli 2000-ə qədər rəsm əsəri ərsəyə gətirmişdir. Qısa zamanda 1914-cü ilin iyun ayında rəssamın Naxçıvandakı ilk böyük sərgisi və orada göstərilən rəsmləri həmyerlilərini heyran etmişdi. Mətbu orqan olan " İqbal " qəzeti onun sərgisi haqqında belə yazmışdı: "Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır".

Cəmi otuz il ömür sürən Kəngərli zəngin bədii yaradıcılıq irsində çoxlu portret, mənzərə, natürmortlar yaratmışdır. Dövrünün qabaqcıl ziyalılarının, sadə adamların portretləri olan "Yaşlı kişi", "Gürcü" mövzu aktuallığına və ideya məzmununa görə, zamanının ictimai-siyasi hadisələri ilə səsləşən *"Qaçqınlar"* silsiləsinə daxil olan portretlər canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə bir-birindən fərqlənir. Rəssamın yaradıcılığında mühüm yer tutan mənzərə janrında təbiət gözəllikləri əks edilmişdir. *"Şəlalə", "Dağlıq mənzərə", "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Ağrı dağı", "Köhnə qala", "Əliabad kəndində darvaza", "Yamxana kəndinə gedən yol" və s., mədəniyyət abidələri "Möminə xatın türbəsi", "Əshabi-kəhf dağı", "Nuhun qəbri", ilin fəsilləri "Payız", "Bahar"* əsərlərini misal gətirə bilərik.

Bəhruz Kəngərli 1918-1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər də yaratmışdır. Bu silsilədən olan *"Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Qaçqın Gümşün", "Ayaqyalın qaçqın oğlan"* və s. onlarla qaçqının portretləri təkcə sənətkarlıq səviyyəsinə görə deyil, tarixi sənəd kimi də çox dəyərlidir. O, portret ustası kimi yaratdığı personajların daxili-psixoloji aləmini açıb göstərə bilmişdir. Rəssam təsvir etdiyi qaçqın uşaqların hər birinin simasında didərgin düşdükləri ata-baba ocaqlarının həsrətini, keçirdikləri hiss və həyəcanları, gözlərinə qonmuş qüssə və kədəri özünəməxsus ustalıqla əks etdirmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Bəhruz Kəngərli yaradıcılığından qalmamış, bir çox boyakarlıq və qrafika əsərləri yaratmış, rəssamlıq sənətini gənclərə öyrədib, bu sənəti sevdirmək üçün xüsusi dərnək açmış, fərdi sərgilərini təşkil etmişdir. 1921-ci ildə Azərbaycanda açılan ilk böyük sərgisində Kəngərlinin 500-dən çox əsəri nümayiş etdirilmişdir. Əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, Naxçıvan Dövlət Tarix Muzeyində, Moskva Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda indiyədək saxlanılan Kəngərli həm də milli teatr rəssamlığının banilərindən olmuşdur. 1910-cu illərdə Naxçıvan teatrında Cəlil Məmmədquluzadənin *"Ölülər", Mirzə Fətəli Axundovun "Hacı Qara", Əbdürrəhimbəy Haqverdiyevin "Pəri-cadu"* tamaşalarına bədii tərtibat və geyim eskizləri vermişdir. Adil Babayevin yazdığı *"Yarımçıq şəkil"* pyesi isə Kəngərliyə həsr olunmuşdur. Naxçıvan MR Ali Məclisi sədrinin 2001, 22 may "Bəhruz Kəngərlinin adının

əbədiləşdirilməsi haqqında ” sərəncamına əsasən, onun Naxçıvan şəhərində muzeyi yaradılmış, qəbirüstü abidəsi ucaldılmışdır.

Azərbaycanda realist rəssamlığın əsasını qoyan Bəhruz Kəngərli təsviri-incəsənət tariximizə adı qızıl hərflərlə həkk edilməyə layiq nadir istedad sahiblərindən biridir deyə bilərik. O, əsərlərini tamamilə milli ruhda işlədiyindən onun yaratdığı əsərlər, mədəniyyətimizdə milli rəssamlığın inkişafında özünəməxsus rol oynamışdır. İncəsənətimizdə realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması məhz onun adı ilə bağlıdır.
Çox qısa yaşamış ömüründə əbədi olmağa, ölməzlik adını layiqincə daşıyan rəssam ömrünün 30 - cu ilində bu dünyanı tərk etmişdir. Bu görkəmli rəssamın qısa həyatı da təzadlarla, qəribəliklərlə dolu olmuşdur. Tale heç də ona qarşı hər zaman xoş davranmamış, uşaqlıqda keçirdiyi ciddi xəstəlik gənc rəssamı eşitmə problemi ilə üz-üzə qoymuşdu. Ancaq yaşadığı bu çətinlik onun rəssamlığa olan bağlılığını qətiyyən azaltmamış, həyat eşqinin alovlanmasına əngəl ola bilməmişdi. Bəhruz Kəngərlinin sənətə olan sevgisini rəssamın analığı Şirin xanım mənbələrdən əldə olunan məlumatlara əsasən belə xatırlayırdı: “Əvvəllər nə mən, nə də atası Bəhruzun şəkil çəkməsinə əhəmiyyət verməzdik. Hətta biz heyifsilənirdik ki, o, vaxtının çoxunu şəkil çəkməyə sərf edir. Amma sonralar atası onun istedadına inanmağa başladı, onun üçün Tiflisdən kağız, karandaş, rəng gətirdi ”.

Uşaq vaxtı ağır xəstəlik keçirən Bəhruz Kəngərli bu ağrı-acılara sinə gərmək üçün fırçadan möhkəm yapışaraq çox erkən yaşlarında rəssamlığa meyil göstərmişdir. Onun rəssam kimi püxtələşməsində Cəlil Məmmədquluzadənin, *“Molla Nəsrəddin”* jurnalının böyük rolu olmuşdur. Yaradıcılığının ilk dövründə

karikatura və satirik rəsmlər, eləcə də məişət səhnələrini çəkən Bəhruz Kəngərli öz rəsmləri ilə müasirlərinin diqqətini çəkdi.

Hər zaman Ümummilli liderimiz Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına daim böyük qayğı göstərmişdir. Ulu öndərimizin təşəbbüsü ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılmış, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilmişdir. 2002-ci ilin yayında muzeyin açılış mərasimində xalqımızın böyük oğlu Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığını yüksək qiymətləndirərək demişdir: *"Bəhruz Kəngərlinin əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur".*

Bu müdrik fikirlərin işığında biz də bir daha öz aydın ziyası ilə Bəhruz Kəngərli xəzinəsinin boyalardan qalxan sənət dünyasına üz tutduq. O əbədiyaşar dühadan bizə əmanət və yadigar *qalan "Atabəy məqbərəsi", "İmamzadə", "Nuhun qəbri", «İlanlıdağ», "Qızlar bulağı", "Qoca kişi", "Toy", "Elçilik"* kimi əsərlər ifadəliliyi, bədi-estetik dəyəri ilə diqqəti çəkən əsərlərini gələcək nəsillərimizə çatdırmaq istədik.

## Keçiriləcək tədbirlər

Bəhruz Kəngərlinin yaradıcılığı haqqında ən dəyərli fikirləri vaxtı ilə ümummilli lider Heydər Əliyev söyləmişdir: O demişdir: "Bəhruz Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustadlığına görə, ikincisi, onun yaratdığı obrazlara görə."

Bəhruz Kəngərli cəmiyyətə faydalı olmaq, xalqının, mədəni həyatına müsbət təsir etmək, gənclərin zövqünü düzgün istiqamətləndirmək naminə öz əsərlərini gənclərə əyani təqdim etmişdir. Rəssam özü əsərlərindən ibarət ilk dəfə Naxçıvanda sərgilər təşkil etmişdir. Onu sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. *Sərgidə Bəhruz Kəngərli haqqında yazılmış kitablar, jurnallar, qəzet materialları, disklər yer alır. Sərgini təşkil edərkən aşağdakı başlıqlardan istifadə etmək olar. "Azərbaycan incəsənətində Bəhruz Kəngərli zirvəsi", "Təsviri sənətdə tarixə dönən rəssam", "Qısa ömrün mənalı cizgiləri" , "Həyatını sənətə bağlayan sənətkar", "Ölməzlik qazanmağa kifayət edən ömür " və s.*


USAQLAR ÜÇÜN ENSİKLOPEDİK MƏLUMAT KİTABI
TƏSVİRİ SƏNƏT
DEKORATİV-TƏTBİQİ SƏNƏT
MEMARLIQ
AZƏRBAYCAN İNCƏSƏNƏTİ


KƏNGƏRLİ


XX əsr
Azərbaycan incəsənəti
haqqında oçerklər


BƏHRUZ BƏY
KƏNGƏRLİ
TALEYİ


К. Кәримов
Бәһруз
Кәнкәрли


Тофиг
Маhмуд
УЗАГДА
УЧАЛАН
ДАҒЛАР


Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi
BƏHRUZ
KƏNGƏRLİ

https://drive.google.com/file/d/1T_U48eNdazEKvV50FWXMNVbzfzXPUj1j/view

**Rəsm sərgisi:**

Rəssamın yaradıcılığında doğma Vətənin gözəlliklərinin tərənnümü xüsusi yer tutur. “Ağrı dağı”, “Gecə mənzərəsi”, “Qoyun sürüsü ”, “ İlan dağı ” ,” Atabəy məqbərəsi ” və s. əsərləri belə əsərlərdən olub, bir-birindən maraqlı və təsirlidir. Onun mənzərələrində təbiət gözəllikləri (“Şəlalə”, “Dağlıq mənzərə”, “İlanlı dağ ay işığında ”, “ Günəş batarkən ”, “Ağrı dağı”, “Köhnə qala ”, “Əliabad kəndində darvaza ”, “ Yamxana kəndinə gedən yol ” və s.) mədəniyyət abidələri (“Möminə xatın türbəsi”, “Əshabi-kəhf dağı”, “ Nuhun qəbri ”), ilin fəsilləri (“Payız”, “Bahar”) əks olunmuşdur. Kitabxanada oxucular üçün keçirilən maraqlı tədbirlərdən biri də rəsm sərgiləridir. Belə tədbirlər oxuculara müəllif haqqında məlumat almağa kömək edir. Oxucularla ayrıca rəssamın təbiət mövzusunda çəkdiyi rəsmlərdən ibarət sərgilər də təşkil etmək olar. Aşağıdakı sərgi başlıqlarından istifadə edə bilərik. “Fırçasıyla təbiətə bağlı rəssam” , “Qızıl fırçalı rəssam”, “*Bəhruz Kəngərlinin təbiət yaradıcılığı”*, **“***Yurdunun füsunkarlığını əks etdirən rəssam”, “Təbiətin poeziyasını fırçanın qüdrəti ilə göz yaddaşımıza köçürmüş rəssam və s.*

Sərgidə yurdumuzun zəngin florası və füsunkarlığı, təbiiliyi minbir gözəlliyi əks olunan “Şəlalə”, “Günəş batarkən”, “ Dağlıq mənzərə”, “Ağrı dağı”, “Ay işığında” adlı əsərlərinin nümayişindən istifadə edə bilərik. Bu əsərlərə baxdıqca uzun müddət bu mənzərələrin təsirindən ayrıla bilmirsən. Bir tərəfdən ilin fəsillərini kətana köçürmüş rəssam, digər tərəfdən mədəniyyət abidələrimizin rəsmlərini də çəkmişdir. Belə əsərlərdən olan “ Minarəsi dağıdılmış ev ”, “ Naxçıvanda abidə ”,

“ Nuhun məzarı ” əsərlərindən ibarət sərgi təşkil edə bilərik. Sərgiyə “ Bəhruz Kəngərli yaradıcılığında mədəniyyət abidələri” başlığı verə bilərik.





O, dövrünün qabaqcıl ziyalılarının portretləri üzərində də işləyib, karikatura və satirik rəsmlər, memarlıq, mənzərə və məişət səhnələrini əks etdirən rəsm, akvarel və rəngkarlıq əsərləri yaratmışdır. Bu əsərlərdən hazırlanmış rəsm sərgisinidə oxuculara təqdim edə bilərik. Qeyd etdiyimiz linkdə rəssamın əsərlərindən ibarət nəşr edilmiş kataloq verilmişdir. Bu albom-kataloq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin qərarı ilə “Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında” sərəncama əsasən hazırlanmışdır.

http://behruzkengerli.nakhchivan.az/en/images/kitabpdf/albom.pdf

Rəssamın yaradıcılığında bütövlükdə, xalqımızın yaşadığı faciəli illərin ağrı-acılarını əks etdiən əsərlər vardır. Bu silsilə əsərlər 1918-1920-ci illərdə mənfur erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz ana torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarətdir.



Bu silsilədən *"Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Ayaqyalın qaçqın oğlan"* və sair kimi onlarla portretə baxarkən orada təsvir olunan insanların gözlərindəki kədər, Vətən həsrəti insanın qəlbinin dərinliklərinə nüfuz edir. Tarixi reallıqları özündə əks etdirən bu rəsm əsərləri daşnakların törətdikləri qırğınların, deportasiyaların, ümumən, millətimizin üzləşdiyi dərdlərin gələcək nəsillərə çatdırılmasında əvəzsiz mənbədir. Yuxarıda adları çəkilən əsərlər təkcə portret kimi sənətkarlıq səviyyəsinə görə deyil, həm də tarixi sənəd kimi çox dəyərlidir. Bəhruz Kəngərli əsərlərində xalqımızın tarixini və dövrün ictimai-siyasi hadisələrini dolğun əks etdirən bir sənətkar kimi yüksək qiymətə layiqdir. "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin, xalqımızın dəyərli nümunələridir. Bu nümunələrdən kitabxanada keçirilən vətənpərvəlik haqqında tədbirlərdə, Azərbaycan tarixini əks etdirən oxucular üçün hazırlanmış sərgilərdə istifadə edə bilərik.

 

Bu rəssamın əsərlərinə diqqət yetirdikdə duyursan ki, Bəhruz Kəngərli hərtərəfli rəssam olmuşdur. Onun müraciət etmədiyi mövzu olmamışdır. Rəssamın fırçasından doğulan bütün əsərlər qiymətlidir. Bəhruz Kəngərli həm də milli teatr rəssamlığının banilərindən sayılır. O, Naxçıvanda teatr sənətinin inkişafı ilə əlaqədar tədbirlərin həyata keçirilməsində yaxından iştirak etmişdir. Bəhruz Kəngərli 1912-ci ildə Naxçıvan teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasının bədii tərtibatını verərək, ilk dəfə teatr rəssamı kimi fəaliyyətə başlamışdır. Rəssam 1912-ci ildən 1918-ci ilədək Naxçıvan teatrının səhnəsində Nəcəf bəy Vəzirovun *"Pəhləvanani-zəmanə"*, *"Hacı Qəmbər"*, "Müsibəti-Fəxrəddin", Əbdürrəhim bəy Haqverdiyevin "Ac həriflər" - ümumilikdə 40-dan çox tamaşaya irihəcmli pannolar çəkmiş, səhnə tərtibatı və geyim eskizləri vermişdir. Rəssam milli xalq geyimlərinin misilsiz bilicisi olmuşdur. O, bədii tərtibat verdiyi əsərlərin personajlarını səciyyələndirən, tarixi dürüstlüyü, milli koloriti, zəngin boyaları, naxışları, bəzəkləri ilə nəzəri cəlb edən çoxlu əlbəsə eskizləri yaratmışdır.

1910-cu illərdə Naxçıvan teatrında tamaşaya qoyulan Cəlil Məmmədquluzadənin "Ölülər", Mirzə Fətəli Axundzadənin

"Hacı Qara", Əbdürrəhimbəy Haqverdiyevin "Pəricadu" əsərlərinin bədii tərtibatını və geyim eskizlərini də məhz Bəhruz Kəngərli vermişdir.

1917-ci ildə Bəhruz Kəngərli Naxçıvan "Xeyriyyə" məktəbinin nəzdindəki "El güzgüsü" adlı teatr cəmiyyəti tərəfindən tamaşaya qoyulmuş Cəlil Məmmədquluzadənin "Ölülər" komediyasının səhnə tərtibatını, dekor və geyim eskizlərini icra etmişdi. O, həmçinin 1918-ci ildə tamaşaya qoyulmuş "Ölülər", "Pəri Cadu", "Hacı Qara" kimi əsərlərin səhnə tərtibatını vermiş, bundan əlavə teatrın arxa səhnəsi üçün dağ mənzərəsini təsvir edən irihəcmli panno çəkmişdir ki, ondan müxtəlif tamaşalarda istifadə olunurdu.

**Biblioqrafik icmal:**

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri də, kitab icmallarıdır. Biblioqrafik kitab icmalı - bir və ya bir neçə çap əsəri




haqqında müəyyən plan əsasında qurulmuş söhbət deməkdir və kitabxana işi təcrübəsində təbliğatın təsirli formalarından biri kimi geniş istifadə olunur. Biblioqrafik icmal məlumatların çatdırılmasının ən təsirli üsullarından biridir. İcmalın əsas üstünlüyü onun rahatlığı, dinləyiciyə birbaşa təsir etməsidir. Bu forma səmərəliliyi, aydınlığı, emosionallığı ilə seçilib, oxuculara nəşrlərlə əyani şəkildə tanış olmaq imkanı verir. Ona görə də icmallar bütün tip kitabxanalarda mütəmadi olaraq keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə, Bəhruz Kəngərlinin anadan olmasının 125 illiyi ilə əlaqədar 2017-ci ildə Əcəmi nəşriyyatı tərəfindən rəssamın həyat və yaradıcılığına həsr olunmuş *" Bəhruz bəy Kəngərli taleyi "* (Naxçıvan, " Əcəmi " nəşriyyatı, 2017, 512 s.) adlı ensiklopedik xarakterli fundamental bir kitab çap

olunmuşdur. Kitabın müəllifləri Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev və Naxçıvanda fəaliyyət göstərən bədii qrafika ustası Nizami Alıyev, redaktorları tarix üzrə fəlsəfə doktoru Musa Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqovdur.

İlk əvvəl oxucularla icmalın keçirilməsi üçün hazırlıq görülür, keçiriləcəyi gün təyin edilir. İcmal zamanı onlara kitabın biblioqrafik göstəriciləri, kitabın nəşr edilməsi haqqında məlumat verilir. Kitabxanaçı: Cəmisi 30 il (1892-1922), lakin əsrlərə bərabər ömür yaşamış dahi rəssam Bəhruz bəy Şirəlibəy oğlu Kəngərli böyük bir tale sahibi olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə, anadan olmasının 125 illiyi ilə əlaqədar əbədi gənc rəssamın həyat və yaradıcılığına həsr olunmuş " Bəhruz bəy Kəngərli taleyi " adlı 512 s.-lik ensiklopedik xarakterli bu kitabın müəllifi Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev və Naxçıvanda fəaliyyət göstərən bədii qrafika ustası Nizami Alıyev, redaktorları tarix üzrə fəlsəfə doktoru Musa Quliyev və sənətşünaslıq üzrə fəlsəfə doktoru Samir Sadıqovdur. Yüksək poliqrafik şəkildə, milli kitab mədəniyyətimizin nümunəsi kimi nəşr olunmuş bu kitab tarixi - estetik məzmunu və zəngin forması ilə də diqqəti cəlb edir. Kitabın ərsəyə gəlməsi üçün müəlliflər tərəfindən böyük zəhmət və fədakarlıqla tədqiqatlar aparılmışdır. Müəlliflər müstəqilliyimizin verdiyi imkanlardan səmərəli istifadə edib, Naxçıvanda, Bakıda, Gürcüstan arxivlərində Bəhruz Kəngərli ilə bağlı bu vaxtadək naməlum qalmış Sovet rejimi tərəfindən yasaq edilmiş sənədləri tapıb üzə çıxarmış, rəssamın mükəmməl həyat və yaradıcılıq bioqrafiyasını yazmış, onu təşəkkül sorağı Şumerdən, Hun imperiyasından, "Avesta" dan, "Kitabi-Dədə Qorqud" dan gələn qədim və böyük Kəngərli nəslinin 600 illik tarixi qəhrəmanlıq və yaradıcılıq ənənələri

kontekstində təqdim edə bilmişlər. Kitabda Bəhruz Kəngərli taleyi Kəngərli nəslinin tarixi-mənəvi tale məcrasında təqdim olunur. Azərbaycan xalqının etnogenezində iştirak etmiş qədim türk tayfası olan Kəngərlilər barəsində tarixçilərimiz qiymətli tədqiqatları kitabda qeyd etmişlər. Bu nəsildən olan tarixçi və şair Adil Kəngərli yazır: " Kəngərli nəsli 600 illik tarixə malik olub, ilk dəfə adları Şumerlə əlaqəli çəkilib. Şumerlərin öz adı Kəngər olub, Şumer adını isə onlara akkadlar verib. Kəngərlilər mixi yazını yaratmış, ilk arabanı düzəltmiş, Orta Asiyada Kanq dövləti (e.ə. IV əsr), Azərbaycanda Salarilər dövləti (X əsr) və Naxçıvan xanlığının əsasını qoymuşlar. Bu gün Fars körfəzi adlanan ərazi, əsrlər boyu Kəngər körfəzi adlanıb. Naxçıvanskilər məşhur Kəngərli türk tayfasının bir hissəsinə çar imperiyası dövründə verilən soyaddır". *"Bəhruz bəy Kəngərli taleyi"* kitabı bir sıra orijinal xüsusiyyətləri ilə qiymətlidir: burada rəssamın dövrü və mühiti, uşaqlıq və təhsil illəri, sənət dünyası "Qaçqınlar" silsiləsi rəsmləri, mənzərə, natürmort, teatr, səhnə qrafikası ilə bağlı əsərləri, portret rəssamlığı və qrafika sahəsində nailiyyətləri analitik təhlil olunur, böyük rəssam haqqında fikirlər də verilir. Kitabın *"İthaflar"* bölməsində Bəhruz Kəngərliyə həsr olunmuş bədii publisistik və portret əsərləri verilir. Bu sıradan *İ. Səfərlinin "Naxçıvan yadigarı" şeiri, Tofiq Mahmudun "Uzaqda dağlar görünür" povesti, Elçin İsgəndərzadənin "Rəssam və mələk" bayatı-poeması, Adil Babayevin "Bəhruz" "Yarımçıq şəkil" pyesi, Zair Vedilinin " Həmişəyaşar Bəhruz "* şeiri kitaba dolğun məzmun gətirir, Bəhruz Kəngərlinin yarımçıq portretini xəyalən tamamlamağa imkan yaradır. Rəssamın əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindən hesab edilir. Biz fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları var. Hələ sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha yaxından

tədqiq edib, onun haqqında əsərlər yazacaqlar. İnanırıq ki, "Bəhruz bəy Kəngərli taleyi" kitabı bu yolda atılan qiymətli addım hesab oluna bilər. Bəhruz Kəngərlinin əsərləri göstərir ki, sənət həyatı bir imkan kimi yenidən yaratmaqdır. Sənət ilahi ilhamın və istedadın həyatla əlaqəsidir. Sənət təkcə həyatın yox həyatda olmayan, fəqət olmalı olanı əks etdirir. Rəssamlıq həyatda çatışmayan boyalarla həyatı bəzəmək demәkdir. Həyatda gözəllik solur, sənət əbədi olaraq yaşayır.

Bəhruz Kəngərli portretçi rəssam kimi rəssamlıqda öz imzasını atmışdır. Mənzərə əsərlərində olduğu kimi, portret əsərlərində də realizm ənənələrinə sadiq qalan rəssam, bu janrı istər məzmun, istərsə də bədii forma cəhətdən yeni keyfiyyətli realist sənət səviyyəsinə qaldırıb. O, öz portretlərini də realizm üslubunda işləyirdi. Onun əsərlərinin arasında ən çox uşaqların portretləri üstünlük təşkil edirdi. Onların məsumluğu ilə törədilən vəhşiliklər arasındakı təzadı rəssam əsl sənətkar məharəti ilə tamaşaçıya çatdırmağa çalışmışdır. Rəssam 1921-ci ildə "Qızıl əsgər" əsərini çəksə də, bu iş onun ömrünə zəmanət vermədi. Öncə qeyd etdiyimiz kimi 1922-ci ildə dünyasını vaxtsız dəyişərək xatirələrə köçdü. Tədqiqatçıların fikrincə, Bəhruz Kəngərlinin iki minə yaxın portret, mənzərə və rəsm əsərləri əldən-ələ düşərək itmişdir. Hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində Bəhruz Kəngərlinin 500-ə yaxın əsəri qorunur. Naxçıvandakı muzeydə isə 50-dən çox orijinal əsəri nümayiş etdirilir. Moskva Dövlət Tarix Muzeyində və şəxsi kolleksiyalarda da əsərləri saxlanılır. Bəhruz Kəngərlinin mənsub olduğu Kəngərli nəsli haqqında tədqiqatçılar müəyyən kitablar da çap etdiriblər. Təbii ki, bundan belə də bu orijinal fırça sahibinin rənglər dünyası zaman-zaman araşdırılacaq və tədqiq ediləcəkdir. Ulu öndər Heydər Əliyevin verdiyi qiymətlə Bəhruz Kəngərlinin kim olduğu, Azərbaycan mədəniyyəti tarixində hansı mövqedə

dayandığı tamamilə aydınlaşır. Bir daha qürur duymağa dəyər ki, Azərbaycan incəsənətinin tarixində özünəməxsus xidmətləri ilə yaşayan Bəhruz bəy Kəngərli kimi sənətkarlar, bəşəri ideyalı insanlar olublar.Tanrı onu dünyanın gözəl səslərini eşitməkdən məhrum etmişdi. Bəlkə də o, daha artıq dərəcədə rənglərin simfoniyasını duyar, çoxlu portret, mənzərə, natürmort əsərləri yaradardı. Vaxtı ilə Naxçıvanda açılan ilk böyük sərgidə Bəhruz Kəngərlinin 500 əsəri nümayiş etdirilmişdi. Bu əsərlər sırasında *"Şəlalə", "Dağlıq mənzərə", "İlandağ ay işığında", "Günəş batarkən", "Ağrıdağ", "Köhnə qala", " Əshabi-kəhf dağı"* kimi *mənzərə rəsmləri. " Əshabi-kəhf dağı "* mənzərə rəsmində Bəhruz Kəngərli müqəddəsliyin ülviyyətini əbədiləşdirməyə nail olmuşdu. Əgər "Ağrıdağ " əsərində azərbaycançılıq idealı əksini tapırsa, "Mömünə xatun türbəsi " rəsmində tarixi yaddaşımızın əbədiyyətinə inam ifadə olunur. Kitabxanada bu əsərlərin müqayisəli təhlilini aparıb oxuculara rəssamın yaradıcılığının böyüklüyünü çatdıra bilərik. Bəhruz Kəngərli yaradıcılığının mühüm bir qolunu təşkil edən teatr rəssamlığı olub. Dahi rəssam Rafael deyib: "Anamın bircə öpüşü məni rəssam elədi ". Fəqət Bəhruz Kəngərliyə belə bir ilahi mərhəm qismət olmadı. Əfsus ki o anasını tez itirdi. İnamla demək olar ki, Bəhruz Kəngərlinin yaradıcılığı uşaq səmimiyyətindən yoğrulub. O, bu rəsmləri ilə təbiətdən əbədiyyətə yol açmışdır. Onun rəsmləri əbədi olaraq gəncdir, özü kimi əbədi gənc. Bu şəkillər qocalıqdan xəbərsizdir, müəllifi kimi onlar da heç vaxt qocalmayacaq.

Azərbaycan Respublikası Prezidentinin 13 aprel 2012-ci il tarixli sərəncamına əsasən milli təsviri sənətimizin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin 120 illik yubileyi geniş qeyd olundu. Sərəncama əsasən Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 12-22 iyun 2012-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində Bəhruz Kəngərlinin yubileyinə həsr

olunmuş sərgi keçirildi. Sərgidə Bəhruz Kəngərlinin 80-nə yaxın əsəri nümayiş etdirildi. Dekabırm 7-də isə Naxçıvan şəhərində, Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Rəsm Qalereyasında Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası əsasında görkəmli sənətkarın əsərlərindən ibarət sərgi təşkil olunub. Ölkə Prezidentinin müvafiq sərəncamına əsasən görkəmli rəssamın yubileyi respublikada silsilə tədbirlərlə qeyd olunub. Yubileylə əlaqədar poçt markası buraxılmış və elmi konfranslar keçirilmişdir. Rəssamın əsərlərindən ibarət ilk albom-kataloq nəşr olunmuş, “Sənətin Bəhruz zirvəsi ” adlı sənədli film hazırlanmışdır. Haqqında söz açdığımız “Bəhruz bəy Kəngərli taleyi ” kitabı bu işlərin fundamental yekunu oldu. Bəhruz Kəngərlinin çəkdiyi silsilə əsərlərdən təşkil edilmiş rəsm sərgiləri gənclərin vətənpərvər ruhda inkişafı üçün səmərəlidir. Bu tədbirlərə “Rəssamın əsərlərində Vətən sevgisi”, “Vətənpərvər rəssam” və s. sərgi başlıqları seçə bilərik.


Oturmuş qaçqın oğlan
Qaçqınlar arabada
Qırmızı yaylıqlı qız
Qaçqın oğlan
Qaçqın qız

## Görkəmli şəxsiyyətlərin Bəhruz Kəngərli haqqında söylədikləri

Bəhruz Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi onun rəssamlıq ustalığına görə, ikincisi onun yaratdığı obrazlara görə. Mən insan obrazlarını deyirəm. Rəssam o ağır dövrün 1918,1919,1920-ci illərin çətin dövründə xalqımızın ağır vəziyyətdə olmasını az da olsa öz əsərlərində əks etdirib.

Hesab edirəm ki, Azərbaycanda bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar. Bəhruz Kəngərlini Azərbaycan xalqının görkəmli və yüksək mədəniyyətə malik olan nümayəndəsi, həm də böyük rəssam kimi təbliğ etsinlər! ”

**Heydər Əliyev**

*Ümummilli lider*

Bəhruz Kəngərli şəxsiyyətini yalnız rəssam kimi deyil, həm də Azərbaycan xalqının görkəmli ziyalısı kimi dəyərləndirmək, tədqiq etmək, öyrənmək və öyrətmək lazımdır ”.

**Vasif Talıbov,**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri*

Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır .

***“ İqbal ” qəzeti***

Mənim rəssamlıq təhsili almağıma Bəhruz səbəb oldu.

**Adil Qazıyev,**

*Rəssam*

Kitabxanada Bəhruz Kəngərli yaradıcılığnın təbliğində rəssam haqqında hazırlanmış sualların da əhəmiyyəti vardır. Bu sualları sizə təqdim edirik.

**1) Bəhruz Kəngərli neçənci ildə anadan olmuşdur?**

**a)** **1887**
**b)** 1892
**c)** **1874**

**2) Onu rəssamlığa kim həvəsləndirmişdir?**

**a)** Atası Şirəlibəy
**b)** **Cəlil Məmmədquluzadə**
**c)** **Şirin xanım**

**3) İlk təhsilini Naxçıvanda alan rəssam təhsilini harada davam etdirmişdir?**

**a)** **Bakıda**
**b)** **Turkiyədə**
**c)** Tiflisdə

**4) Bəhruz Kəngərlinin rəssam kimi incəsənətin hansı sahəsində rolu olmuşdur?**

**a)** **Kino**
**b)** Teatr
**c)** **Musiqi**

5) **Teatrda hansı tamaşaların tərtibatında iştirak etmişdir?**

  a) **Qaçaqlar**
  b) **İblis**
  c) Ölülər, Pəri Cadu

6) **C.Məmmədquluzadənin yaradıcısı olduğu hansı jurnal ilə rəssam əməkdaşlıq etmişdir?**

  a) **Hophopnamə**
  b) Molla Nəsrəddin
  c) **İqbal qəzeti**

7) **O yaradıcılığında real həyatdan götürdüyü hansı mövzunu ürəkağrısı ilə silsilsilə şəklində yaratmışdır?**

  a) **Təbiət**
  b) **Vətən**
  c) Qaçqınlar

8) **Ədəbiyyatımızda hansı yazıçı Bəhruz Kəngərlinin həyatından bəhs edən povest yazmışdır?**

  a) **İlyas Əfəndiyev**
  b) **Qılman İlkin**
  c) Tofiq Mahmud

9) **Povest necə adlanır?**

   a) Uzaqda ucalan dağlar
   b) **Bəhruz Kəngərli**
   c) **Sənət dünyası**

10) **Bəhruz Kəngərlinin ev muzeyi Heydər Əliyev tərəfindən harada açılmışdır?**

   a) **Bakıda**
   b) Naxçıvanda
   c) **Şəkidə**

***Bəhruz Kəngərli - Azərbaycanın ilk peşəkar teatr rəssamı kimi***

Peşəkar Azərbaycan teatrı təşəkkül tapandan sonra həm ilkin həvəskarlıq dövründə, həm "müsəlman" artistləri cəmiyyəti"ndə, sonralar "Nicat", "Səfa" və sair teatr truppalarında tamaşalar hazırlananda tərtibat hazır şəkildə kirayəyə götürülürdü. Hətta müxtəlif tamaşalarda müəyyən əşyalar dəyişilərək eyni otaqda tərtibat işləri gedirdi. 1922-ci ilə kimi heç vaxt teatr binası olmasa da, müəyyən vaxtlarda Naxçıvana gələn Kəngərli teatr üçün dostu Rza Təhmasibin xahişi ilə müəyyən mənzərələri əks etdirən asma pərdələri həvəslə hazırlayırdı. Pərdələr meşə, dağ, çay rəsmlərindən ibarət olurdu. Truppa onlardan müxtəlif tamaşalarda istifadə edirdi. Bəhruz Kəngərli eyni zamanda 1917-ci ilə " Xeyriyyə məktəbinin nəzdindəki "El güzgüsü" teatr cəmiyyəti tərəfindən Naxçıvan klubunda səhnələşdirilən tamaşaların

bədii tərtibatında da yaxından iştirak etmişdir. 1917-ci ildə Cəlil Məmmədquluzadənin "Ölülər", 1918-ci ildə M. F. Axundzadənin " Hacı Qara ", Əbdürrəhimbəy Haqverdiyevin "Pəri Cadu" əsərlərinə bədii tərtibat və hər personaja uyğun qrim tərzini düşünmüş, geyim eskizləri hazırlamışdır. Beləliklə Bəhruz Kəngərli Naxçıvanda da teatr sənətinin inkişafına əlindən gələn köməkliyi göstərmişdir. Kitabxanada teatr günü ilə bağlı keçirilən tədbirlərdə Bəhruz Kəngərlinin teatr fəaliyyətinə də yer ayıra bilərik.

**Bəhruz Kəngərli (1892-1922)** : rəngkarlıq qrafika / Bakı : Şərq-Qərb, 2013. - 104 s.. - (Sərvət). - Azərbaycan və ingilis dillərində.




Son illər Azərbaycan incəsənətinə dövlət tərəfindən verilən qiymətlə bağlı nəşr edilən bu kitab Bəhruz Kəngərli haqqında hazırlanmışdır.

Azərbaycan Respublikası Milli İncəsənət Muzeyinin əməkdaşlarının iştirakı ilə hazırlanan və " Şərq-Qərb " Nəşriyyat Evində çap olunan bu kitabda Bəhruz Kəngərlinin həyat yoluna nəzər salınmış, yaradıcılığına təsir göstərmiş məşhur rəssamlar, mədəni mühit haqqında məlumat verilmişdir.

Kitabda rəssamın "Molla Nəsrəddin" jurnalı və teatr sahəsindəki fəaliyyəti də işıqlandırılmışdır. Eyni zamanda 1918-1920-ci illərdə azərbaycanlılara qarşı törədilən amansızlığın Bəhruz Kəngərli yaradıcılığında buraxdığı izlərdən də danışılmışdır. Oxuculara Azərbaycan və ingilis dillərində təqdim olunan bu kitab qrafika, rəngkarlıq və rəssamın yaradıcılığı ilə maraqlanan hər kəs üçün nəzərdə

tutulmuşdur. Kitabxanada rəssamın yubileyi ilə bağlı həmin kitabın icmalını oxucularla keçirə bilərik.

## Kitab müzakirəsi

"Alça ağacı qurusa da Bəhruzun yaşadığı həyətdə illər boyu qalmışdı. Onu bacısı Tahirə daha çox qoruyurdu. Onu kökündən qoparıb atmaq istəmişdilər, amma Tahirə heç kəsi yaxına buraxmamışdı. Ağac qəribə şəklə dönmüşdü. Qupquru budaqlar bir-birinə dolaşıb kiminsə həsrətini çəkən adam kimi sıxılmış, büzüşmüş, məhzun bir görkəm almış, təbiətin yaratdığı etüdə çevrilmişdi. Deyirlər ki, bu ağac son illərə qədər həmin həyətdə dururdu.Təəssüf etməyə dəyməz, çünki alça ağacı indi olmasa da Bəhruzun rəsmlərindən birində əbədi yaşayır! " - Bu cümlələr böyük Azərbaycan rəssamı Bəhruz Kəngərlinin həyatından bəhs edən "*Uzaqda ucalan dağlar"* romanındandır. Romanın müəllifi yazıçı Tofiq Mahmuddur. Müəllifin son irihəcmli əsəri olan "Uzaqda ucalan dağlar" romanı rəssam həyatından bəhs edən yeganə Azərbaycan romanıdır. Yubiley münasibətilə kitabxanada " Uzaqda ucalan dağlar " povestinin birgə təhlilini keçirə bilərik. Müzakirəni yuxarı sinif məktəbliləri ilə məktəbin ədəbiyyat dərslərindən birində də keçirmək  olar. Bunun üçün son zamanlar həm bədii-estetik baxımdan, həm də Bəhuz Kəngərlinin həyatının öyrənilməsi baxımından önəmli olan bu gözəl əsərin yalnız arxivlərdə qalmasını istəməyən "Kitabsevərlər" qrupu, bu əsəri köhnə kiril əlifbasından yeni latın qrafikalı əlifbaya çevirərək nəşr etdirmişdir. Povestdə Bəhruz Kəngərlinin uşaqlıq və gənclik illəri qələmə alınmışdır.

Müasir Azərbaycan incəsənətinin ekspozisiyası Azərbaycan Dövlət İncəsənət muzeyində yerləşir və

Azərbaycanın XX əsrin 30-90-cı illərinin rəssamlıq, heykəltaraşlıq, qrafika, bədii-tətbiqi incəsənətini təmsil edir. Azərbaycanın Milli incəsənət muzeyinin zəngin kolleksiyası keçmişin bədii abidələrinə yeni gözlə baxmaq və müasir incəsənətin xüsusiyyətlərini özü üçün yenidən açmaq imkanı verir. Azərbaycan rəssamlarının müasir rəssamlıq əsərləri və qrafikaları Bakı müasir incəsənət muzeyində, dünyanın bir çox ölkələrində şəxsi kolleksiyalarda saxlanılır.

Azərbaycan təsviri sənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşması Kəngərlinin adı ilə bağlıdır.

## Bəhruz Kəngərli muzeyi:

Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 13 iyul tarixli qərarı ilə Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə yaradılmışdır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 2002-ci il 18 iyun tarixində bu muzeyin açılışında iştirak etmişdir. Tarixi-memarlıq abidəsi olan muzeyin binası 1897-ci ildə Naxçıvan qızlar məktəbi üçün tikilmişdir. Ümumi sahəsi 560 $m^2$-dir. Şərq və qərb memarlıq elementlərinin sintezindən tikilmiş ikimərtəbəli binanın birinci mərtəbəsində 7, ikinci mərtəbəsində isə 5 otaq yerləşir. Bina iqlim şərtlərinə uyğun olaraq çiy kərpicdən tikilmiş və fasadı bişmiş kərpiclə üzlənmiş bina XX əsrdə binadan tədris müəssisəsi kimi istifadə olunmuşdur. Burada əvəllcə pedaqoji texnikum, sonra isə Heyran xanım adına tibb

texnikumu yerləşmişdir. Muzeydə 350-yə yaxın maddi-mədəniyyət nümunəsi qorunub saxlanılır və nümayiş etdirilir ki, bunların da 56-sı rəssamın əsərlərinin orijinalı, 300-ü isə foto surətlərindən, habelə ailəsi, həyat və fəaliyyəti ilə bağlı sənədlərdən, məişət əşyalarından və digər materiallardan ibarətdir. **2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında imzalamış** sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası Ali Məclisində Tədbirlər Planı hazırlanaraq həyata keçirilmişdir. Tədbirlər Planına əsasən, Bəhruz Kəngərlinin Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanan 191 əsərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilmişdir. Muzeydə rəssamın 341 rəsm əsəri vardır. Bu rəsm əsərlərindən 58-i orijinaldır. Həmin vaxtdan muzeydə Bəhruz Kəngərli irsinə aid 900-dən çox eksponat mühafizə olunur.

1921- ci ildə Naxçıvanda İnqilab Komitəsinin təşəbbüsü ilə B.Kəngərlinin 500 əsərdən ibarət böyük sərgisi təşkil olunmuşdur. Daima ehtiyac içərisində yaşayan, heç bir qayğı görməyən Bəhruz üçün həmin sərginin böyük əhəmiyyəti olmuşdur. Həmişə yoxsul və kimsəsizlərin halına acıyan rəssam sərgidən toplanan pulun üçdə birini şəhər uşaq evinə bağışlayaraq onları sevindirmişdir.

**Ədəbi – bədii gecə**

**Aparıcı:** Naxçıvan qaçqınlarla, cır-cındır, ac-yalavac, xəstə, yorğun, halsız, solmuş uşaqlarla, qızlarla, cavanlarla dolmuşdu. Köhnə uçuq evlərin divarlarında sığınacaq tapan bu qaçqınlar qapı-qapı gəzir dilənirdilər. Bəhruz onlara baxa-baxa keçdikcə, ürəyi ağrıyırdı. Səkkiz doqquz yaşındakı uşağın ətəyindən tutmuş ondan balaca oğlanın vəziyyəti cox

acınacaqlı idi. Əynindəki cırıq, yamaqlı köynək bədənini tam örtməmiş, çöp kimi arıq ayaqları çirkdən qartmaq bağlamışdır. Bəhruz ürəyindəki bu ağrı ilə teatra gəlib onun divarına çəkdiyi “Ağrı dağı” nı işləməyə başladı. Bütün ürəyini çəkdiyi Ağrı dağına versə də o iki uşaq xəyalından çııxmırdı. Evə gəlib Pakizəyə onlara səliqəli yer düzəltdirdi.

*(Səhnədə Pakizə yır-yığış edir, silib-süpürür. Səhər həmin yerə gedən Bəhruz uşaqları orda görmür. Qayıdarkən Əkbər bəylə qarşılaşaraq)*

**Əkbər bəy:** Salam, Bəhruz, niyə pəjmürdəsən?

**Bəhruz:** Dünən iki uşaq görmüşdüm, yazığım gəldi indi onları axtarıram, tapa bilmirəm.

**Əkbərbəy:** Biri böyük, biri balaca...

**Bəhruz:** Bəli, bəli!

**Əkbərbəy:** Əgər onları görmək istəyirsənsə mənimlə gedək...

*Onlar Əkbər bəyin evinə gəlirlər.Qapını açanda içəridə kəndli paltarında bir qadın iyirimiyə qədər uşaqla məşğul olur. Zöhrə xanım Bəhruzun salamını alıb onu içəri dəvət edir. Bəhruz kənarda oynayan uşaqları ayaqlarından tanıyır. İndi onların əynində göy rəngdə bədənlərinə yekə olan köynəkləri var idi.*

**Aparıcı:** Bu xeyirxahlığı görən Bəhruz sevinə-sevinə gedir.

**Aparıcı:** Bir gün yenə teatrdan yorğun çıxan Bəhruz ağaca söykənmiş çalmalı bir qaçqın görür. O, durub qızdan soruşur:

**Bəhruz:** Hardan gəlmisən?

**Qaçqın qız** : Qız qorxub üzünü yana çevirir.

**Bəhruz:** Qorxma, mən rəssamam, şəklini çəkmək istiyirəm.

**Qaçqın qız:** Mənə yemək verərsən?

*(Bəhruzun ona çox yazığı gəlir, imkanı olsa burda indi ona yemək verərdi)*

**Bəhruz:** Uzaqdan gəlmisən?

**Qaçqın qız:** Dağ kəndindən.

**Bəhruz:** Şəhərdə kimin var?
**Qaçqın Qız**: Heç kimim.

**Bəhruz:** Bəs nə edəcəksən?

**Qaçqın qız:** Bilmirəm.

**Bəhruz:** Gedək mənimlə bizə evə... Anam var, bacım, qardaşım... Gedək yemək verərlər sənə...

**Aparıcı:** 1921 - ci ildə Naxçıvanda İnqilab Komitəsinin təşəbbüsü ilə B.Kəngərlinin 500 əsərdən ibarət böyük sərgisi təşkil olunmuşdur. Daima ehtiyac içərisində yaşayan, heç bir qayğı görməyən Bəhruz üçün həmin sərginin böyük əhəmiyyəti var idi. Həmişə yoxsul və kimsəsizlərin halına acıyan rəssam sərgidən toplanan pulun üçdə birini şəhər uşaq evinə bağışlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də (1918-1920) Bəhruz Kəngərli yaradıcılıqdan qalmır, boyakarlıq və qrafika əsərləri yaradır, rəssamlıq sənətini gənclərə öyrətmək, bu sənəti sevdirmək üçün xüsusi dərnək açır, fərdi sərgilərini təşkil edirdi.

**Aparıcı:** Müstəqillik illərində də Bəhruz Kəngərli yaradıcılığına maraq artmış, rəssamın yaradıcılığı ən yüksək səviyyədə qiymətləndirilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Bəhruz Kəngərlinin ev muzeyi açılaraq, Azərbaycan Milli İncəsənət Muzeyindən rəssamın əlliyə yaxın əsəri oraya təhvil verilmişdir.

**Aparıcı:** Bu illər ərzində cəmi otuz il ömür sürmüş rəssam haqqında şeirlər yazılmış, filmlər çəkilmiş, pyeslər qələmə alınmışdır. Gəlin İslam Səfərlinin rəssama yazdığı " Naxçıvan yadigarı " adlı şeirə oxucuların ifasında qulaq asaq.

***"Naxçıvan yadigarı" adlı mənzərə albomunun müəllifi rəssam Bəhruz Kəngərliyə***

**I Oxucu**: Bir şeir tablosu yaradım deyə,
Düzdə gülə baxdım, döşdə laləyə.
Durna göyü gəzdi, qartal zirvəni,
Duman göy düzlərin oldu yelkənin.
Dağdan uçqun qopdu, dindi dərələr,
Hürküb, yuxusundan oyandı səhər.
Kəklik daşa səkdi,qırqovul kola,
Dindi qoşalüləm, yüyürdü tula...
Yarğandan quş qalxdı , çaylaqdan sona,
Göllərin qurd-quşu yatdı yovşana.
Ovçu hənirtisi, çöl sükunəti
Yaratdı qəlbimdə bu şeiriyyəti.
Çatıb buz bulağa ,ayaq saxladım ,
Könül dəftərimi mən varaqladım.
Qayalar dil açıb dedi:yazma gəl,
Bu sözlər heç kəsin gəlməz karına ;

Bəhruz hüsnümüzü səndən də əvvəl
Çəkmişdir “ Naxçıvan yadigarı ”na.

**II Oxucu**: “ Pətəkli quzeydən ” aşağı düşdüm,
Yosunlu daşlardan yerə sürüşdüm.
“ Sübhün açılması ”, bir “ Meşə yolu ”,
Dağdağan ağacı , qarağat kolu,
Körpə qımıltısı,salxım söyüdlər
Başımın üstündə əsdi sərasər...
Durub seyr elədim mən bir az çayı,
Ax, ey “ Araz ” çayı , ey “ Araz ” çayı!
O üzü ,bu üzü yastı təpəlim,
Ey almaz dalğalım, gümüş ləpəlim,
Ey iki qardaşın dərdi, qubarı,
Sizin hüsnünüzü yaradım barı...
Bütün misralarda güllər öpüşsün,
Gördüyüm lövhələr şeirimə düşsün.
Səs gəldi: şairim, inadı burax,
Əbəs mizrab vurma könül tarına;
Bəhruz hüsnümüzü səndən də əvvəl
Çəkmişdir “ Naxçıvan yadigarı ”na.

**III Oxucu:**Keçib düz “ Atabəy məqbərəsi ”ndən,
“ Əlyabad yolu ”yla addımladım mən.
“ Edilağa gölü ”nə vuruldum bu an,
“ Ararat ” boylandı dağlar dalından.
“ Təndir çeşməsi ”nin suyu “ gəl ” dedi.
“ Qoyun sürüləri ” keçdi önümdən
“ Axşam qürubu ”nu seyr elədim mən
Bir “ Toy ” şənliyinə düşdü güzarım.

Dedim, qoy məclisə salam aparım.
Gəlib bardaş qurub, “ mübarək ” –dedim
Toyun ağbirçəyi çıxdı qarşıma,
Xınalı əlini çəkdi başıma:
- Yaxşı ki , gəzirsən Vətən mülkünü,
Oğlum, əhsən sənin düz ilqarına.
Ancaq Bəhruz elin toy – düyününü
Çəkmişdir “ Naxçıvan yadigarı ”na.

**IV Oxucu:** Göydən durna keçdi yanə bir dəstə...
Dedim:-Araz üstdən uçan durnalar,
Məndən qardaşıma salamlar apar!
Fikrimi cəlb etdi “ Bulud parçası ”,-
Onu da yaratmış Bəhruz fırçası.
Bu böyük rəssamın məzarına mən
Bir əklil apardım dağ güllərindən.
Sənətin ecazkar ülviyyətinə
Bir daha, bir daha vuruldum yenə.
Bu vaxt ürəyimdən qopdu bir nida:
Şair , böyük sənət qalır dünyada!
Hər yarpaq başına tutduqca çətir,
Vurul Vurğun kimi öz diyarına ;
Bəhruz Kəngərlitək lövhələr gətir
Sən də öz “ Naxçıvan yadigarı ”na.

## Ədəbiyyat siyahısı:

Azərbaycan incəsənəti-təsviri sənət, dekorativ-tətbiqi sənət, memarlıq // II-III cild (X-Ö). - Bakı : Letterpress, 2011. - 200 s. - (Uşaqlar üçün ensiklopedik məlumat kitabı)

Quliyev Ə. M. XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər. - Bakı : Təhsil, 2012. - 168 s.

Bəhruz Kəngərli (1892-1922) : rəngkarlıq qrafika . - Bakı : ŞərqQərb, 2013. - 104 s.

Kərimov K. Bəhruz Kəngərli. - Bakı : Azərb. SSR EA nəşriyyatı, 1962. - 58, [24] s. : şək. ; 20 sm. - kiril əlifbası ilə

**Haqqında: (kitab)**

Mahmud T. Uzaqda ucalan dağlar. - B:. -Yazıçı, 1991. - 312 s.

**Mətbuatda:**

Cəfərov F. Kəngərli nəslinin rəssam oğlu : Bəhruz Kəngərli - 120 // Xalq qəzeti. - 2012. - 31 avqust. - № 193. - S. 7.
Cəfərov F. Sənədlərin dili ilə... : Bəhruz Kəngərli -120 // Respublika. - 2012. - 5 fevral. - № 28. - S. 3.
Qasımov R. Rəssamlığın Bəhruz Kəngərli zirvəsi // Azərbaycan. - 2012. - 2 iyun. - № 120. - S. 7.
Qasımov R. Rəssamlığın Bəhruz Kəngərli zirvəsi // Təhsil problemləri. - 2012. - 08 - 15 avqust. - № 59/60. - S. 15.
Xəlilzadə F. Qəzəi fırçalı rəssam : Bəhruz Kəngərli - 120 // Azərbaycan. - 2012. - 22 yanvar. - № 16. - S. 6.

Əhmədalılar T. 2500 gündə 2000 iş : Günlər Bəhruzu, Bəhuz günləri qovurmuş... // Mədəniyyət. - 2012. - 25. 01. - № 5. - S. 9.
Miriyev A. Bəhruz Kəngərli Muzeyi yeni eksponatlarla zənginləşib // Palitra. - 2014. - 29 yanvar. - № 15. - S. 11
Əliyeva G. (Kəngərli). Şəcərənin rəssam oglu : Bəhruz Kəngərli haqqında çox deyilib-danışılıb. Yüz dəfə, lap min dəfə, Neynək, mənim bu yzım da olsun min birinci... // Qobustan. - 2015. - № 2. - S. 45-47.

Əliyev Z. Bədii güzgünün sərtliyi: Bəhruz bəy Kəngərlinin "Qaçqınlar" silsiləsi haqqında // Kaspi. - 2016. - 11 iyun. - № 102. - S. 24.

Əliyev Z. Bəhruz bəy Kəngərli fenomeni // Ədəbiyyat qəzeti. - 2016. - 6 fevral. - № 5. - S. 29.

**Bəhruz Kəngərli - 130**
**Əbədi olmağa kifayət edən bir ömür**
**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**